*Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin direktorunun 2020-ci il 7 may tarixli p-009 nömrəli əmri ilə* ***təsdiq edilmişdir*** *(2021-ci il 18 may tarixli P-013 nömrəli və 2022-ci il 5 may tarixli P-011 nömrəli əmrlər ilə edilmiş dəyişikliklərlə)*

**Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin ~~Əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunəsinin~~** *Əmtəə nişanları və coğrafi göstəricilərin* **ekspertizası şöbəsinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

**1.1.** Bu Əsasnamə Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin (bundan sonra - **Mərkəz**) ~~Əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunəsinin~~ *Əmtəə nişanları və coğrafi göstəricilərin* ekspertizası şöbəsinin (bundan sonra **- Şöbə**) fəaliyyət istiqamətlərini, vəzifələrini, hüquqlarını və işinin təşkili qaydalarını müəyyən edir.

**1.2.** Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin (bundan sonra - **Agentlik**) fəaliyyətini tənzimləyən normativ hüquqi aktları, Agentliyin İdarə Heyətinin qərarlarını, Agentliyin rəhbərliyinin əmr, sərəncam və göstərişlərini, Mərkəzin rəhbərliyinin əmrlərini (göstərişlərini) və bu Əsasnaməni rəhbər tutur.

**1.3.** Şöbə Mərkəzin struktur bölməsidir, bu Əsasnamə ilə müəyyən edilmiş səlahiyyətləri daxilində Agentliyin Aparatı və tabeliyində olan digər qurumları, Mərkəzin digər struktur bölmələri, patent müvəkkilləri, dövlət və bələdiyyə orqanları, hüquqi və fiziki şəxslər, o cümlədən iddiaçılar və müəlliflərlə əlaqəli şəkildə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

**2.1.** Şöbənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

**2.1.1.** ~~milli əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunəsinin~~ *əmtəə nişanları və coğrafi göstəricilərin* qeydiyyatı ilə bağlı Agentliyə daxil olan iddia sənədlərinin ilkin ekspertizasını və ekspertizasını həyata keçirir;

**2.1.2.** ilkin ekspertizanın nəticəsinə uyğun olaraq iddia sənədinin baxılmağa qəbul edilməsi və ya qəbul edilməsindən imtina barədə qərar qəbul edir;

**2.1.3.** ~~milli əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunəsinin~~ *əmtəə nişanları və coğrafi göstəricilərin* qeydiyyata alınması, yaxud qeydiyyatından imtina barədə rəylər (qərarlar) hazırlayır və baxılmaq üçün Mərkəzin Müşahidə Şurasına təqdim edir;

**2.1.4.** qanunvericilikdə müəyyən edilmiş qaydada ~~milli əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunəsinə~~ *əmtəə nişanları və coğrafi göstəricilərə* dair iddia sənədlərinin ilkinliyini müəyyən edir;

**2.1.5.** Azərbaycan Respublikasının üzv olduğu müvafiq beynəlxalq müqavilələrə uyğun olaraq beynəlxalq əmtəə nişanlarının qeydiyyatının Azərbaycan Respublikasında qüvvədə olması ilə bağlı Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Beynəlxalq Bürosu tərəfindən

Agentliyə daxil olan bildirişlər (sənədlər) üzrə əmtəə nişanlarının ekspertizasını aparır, ekspertizanın nəticələrinə uyğun olaraq müvafiq rəy (qərar) hazırlayır, baxılmaq üçün Mərkəzin Müşahidə Şurasına təqdim edir və bu sahədə digər işləri yerinə yetirir;

**2.1.6.** qeydiyyata alınmış ~~milli əmtəə nişanlarının, coğrafi göstəricilərin və sənaye nümunələrinin~~ *əmtəə nişanları və coğrafi göstəricilərin* beynəlxalq hüquqi mühafizəsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının tərəfdar çıxdığı müvafiq beynəlxalq müqavilələrə uyğun olaraq səlahiyyətləri daxilində tədbirlər görür;

**2.1.7.** qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

**3.1.** Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq şöbə aşağıdakı vəzifələri yerinə yetirir:

**3.1.1.** "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" ~~və "Patent haqqında" Azərbaycan Respublikasının qanunlarına~~ *Azərbaycan Respublikasının Qanununa (bundan sonra-**Qanun**)* uyğun olaraq ~~əmtəə nişanlarının, coğrafi göstəricilərin və sənaye nümunələrinin~~ *əmtəə nişanları və coğrafi göstəricilərin* qeydiyyata alınması ilə bağlı Agentliyə daxil olan iddia sənədlərinin ekspertizasını həyata keçirmək;

**3.1.2.** ekspertizanın nəticəsi mənfi olduqda əmtəə nişanının qeydiyyatından imtina barədə ~~rəylərdə (qərarlarda)~~ *rəydə (qərarda)* imtinanın mütləq və digər əsaslarının dairəsini dəqiq göstərmək və bunları əsaslandırmaq;

**3.1.3.** eyni və ya istehlakçını çaşdıra biləcək dərəcədə oxşar olan nişanların, o cümlədən əmtəələrin və ya xidmətlərin xüsusiyyətləri, keyfiyyəti və ya coğrafi mənşəyi ilə əlaqədar istehlakçını yanılda bilən əmtəə nişanlarının qeydiyyata alınmasına yol verməmək;

**3.1.4.** ekspertiza üçün zəruri olan əlavə sənədlərin təqdim edilməsini qanunvericilikdə müəyyən edilmiş qaydada və müddətdə iddiaçıdan tələb etmək;

**3.1.5.** İddia sənədinin materiallarında aşkar edilmiş çatışmazlıqların və səhvlərin aradan qaldırılması üçün ~~"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda (bundan sonra - **Qanun**)~~ *Qanunda* və həmin Qanuna uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti və Agentlik tərəfindən qəbul edilmiş normativ - hüquqi aktlarda müəyyən olunmuş qaydada və müddətdə iddiaçıya sorğu vermək, bildiriş göndərmək və bu sahədə digər tədbirlər görmək;

**3.1.6.** əmtəələrin və ya xidmətlərin Beynəlxalq Nitsa təsnifatı üzrə siyahısının iddiaçı tərəfindən verilən redaksiyasında dəqiqləşdirmələrin aparılması zəruri olduqda bu barədə iddiaçıya sorğu vermək, əmtəələrin və ya xidmətlərin siyahısında dəqiqləşdirmə ekspertiza tərəfindən həyata keçirildikdə isə bununla əlaqədar bildiriş göndərmək;

**3.1.7.** iddia sənədinə dair iddiaçının və ya qanunla müəyyən edilmiş qaydada onu təmsil edən patent müvəkkili olmayan nümayəndəsinin və ya patent müvəkkilinin vəsatətini araşdırmaq, qaldırılan məsələ ilə əlaqədar Qanunun və həmin Qanuna uyğun olaraq qəbul edilmiş normativ-hüquqi aktların tələbləri nəzərə alınmaqla müvafiq tədbirlər görmək;

**3.1.8.** ekspertiza üzrə prosedurların təkmilləşdirilməsi barədə təkliflər vermək;

**3.1.9.** ekspertlərin peşəkarlığının artırılması üçün təkliflər vermək və bu sahədə tədbirlərin, o cümlədən təlimlərin təşkilində və keçirilməsində iştirak etmək;

**3.1.10.** ~~əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunəsinin~~ *əmtəə nişanları və coğrafi göstəricilərin* qeydiyyatı ilə bağlı ekspertizanın qəbul etdiyi qərarlara dair etirazlarla əlaqədar Agentlikdə fəaliyyət göstərən Sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya Şurasının sorğularına cavabların layihələrini hazırlamaq, zərurət yarandıqda Mərkəzin direktorunun tapşırığına əsasən Apellyasiya Şurasının iclaslarında ekspertlərin iştirakını təmin etmək;

**3.1.11.** fəaliyyət istiqamətlərinə uyğun olaraq dövlət orqanlarından, hüquqi və fiziki şəxslərdən, o cümlədən iddiaçılardan və müəlliflərdən daxil olan müraciətləri araşdırmaq və onların cavablandırılması ilə bağlı tədbirlər görmək;

**3.1.12.** ~~əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunəsinin~~ *əmtəə nişanları və*

*coğrafi göstəricilərin* qeydiyyatı barədə vətəndaşların və iddiaçıların sorğularını cavablandırmaq, onlara məsləhət vermək;

**3.1.13.** şöbənin fəaliyyəti ilə bağlı dövrlər üzrə hesabatlar, arayışlar, icmallar və rəylər hazırlamaq, təhlillər aparmaq;

**3.1.14.** hüquq sahiblərinin hüquqlarının qorunması və müdafiəsi sahəsində Agentlik tərəfindən həyata keçirilən tədbirlərdə iştirak etmək, zərurət yarandıqda qanunla müəyyən edilmiş qaydada məhkəmədə və digər aidiyyəti dövlət orqanlarında ekspertlərin iştirakını təmin etmək;

**3.1.15.** ~~əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunələrinin~~ *əmtəə nişanları və coğrafi göstəricilərin* qeydiyyatını tənzimləyən normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə təkliflər hazırlamaq və ya belə təkliflərin hazırlanmasında iştirak etmək;

**3.1.16.** Agentlik tərəfindən Mərkəzə göndərilən müvafiq normativ hüquqi aktların layihələrinə dair rəy (təklif) hazırlamaq və ya belə rəylərin (təkliflərin), habelə şöbənin fəaliyyət istiqamətlərini əhatə edən normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək;

**3.1.17.** fəaliyyət istiqamətlərini əhatə edən məsələlər üzrə qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət və bələdiyyə orqanlarında, o cümlədən məhkəmələrdə, hüquqi və fiziki şəxslər qarşısında Mərkəzi təmsil etmək, onun hüquqlarını və qanuni mənafelərini müdafiə etmək**;**

**3.1.18.** Agentlikdə və Mərkəzdə yaradılmış müvafiq komissiyalarda, işçi qruplarında, müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə rəhbərliyin göstərişinə əsasən iştirak etmək;

**3.1.19.** vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun baxılmasını təmin etmək;

**3.1.20.** ünvanına çatmadan geri qaytarılan sənədlərin aidiyyəti üzrə digər alternativ üsullar (elektron poçt, faks, telefonoqram) vasitəsilə çatdırılması üçün tədbirlər görmək;

**3.1.21.** əmtəə nişanlarının və coğrafi göstəricilərin qeydiyyatı ilə bağlı bu Əsasnamədə nəzərdə tutulmayan digər məsələlərin həyata keçirilməsini Qanunda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 oktyabr tarixli 166 nömrəli qərarı ilə təsdiq edilmiş "Əmtəə nişanının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nda və 2000-ci il 11 sentyabr tarixli 166 nömrəli qərarı ilə təsdiq edilmiş "Coğrafi göstəricini qeydə almaq üçün iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nda, ~~sənaye nümunələrinin qeydiyyatı sahəsində isə "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 noyabr tarixli 437 nömrəli qərarı ilə təsdiq edilmiş "Patentin alınması barədə iddia sənədinə aid Tələblər"də~~ (bundan sonra-**müvafiq normativ hüquqi aktlar**) müəyyən edilmiş tələblərə və şərtlərə uyğun olaraq prosedurların həyata keçirilməsini təmin etmək;

**3.1.22.** qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

**4.1.** Şöbə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

**4.1.1.** fəaliyyət istiqamətlərini əhatə edən məsələlər üzrə Agentliyin və Mərkəzin struktur bölmələrindən lazımi məlumatları alır;

**4.1.2.** fəaliyyət istiqamətlərini əhatə edən sahələr üzrə beynəlxalq təcrübəni öyrənir və onun tətbiqi üçün təkliflər verir;

**4.1.3.** dövlət və bələdiyyə orqanlarına, fiziki və hüquqi şəxslərə sorğuların göndərilməsi və onlardan müvafiq məlumatların (sənədlərin) əldə edilməsi üçün Mərkəzin rəhbərliyinə təkliflər verir;

**4.1.4.** kənar mütəxəssisləri və müstəqil ekspertləri öz fəaliyyətinə cəlb edir;

**4.1.5.** fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirir.

## 5. Şöbənin fəaliyyətinin təşkili

**5.1.** Şöbənin strukturu və işçilərinin say həddi Agentliyin İdarə Heyətinin sədri

tərəfindən müəyyən və təsdiq edilir.

~~Şöbənin strukturuna Milli əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunəsi sektoru və Beynəlxalq əmtəə nişanı sektoru daxildir.~~

*Şöbənin strukturuna Milli əmtəə nişanları və coğrafi göstəricilər sektoru, Beynəlxalq əmtəə nişanları sektoru və İddiaçıların müraciətləri üzrə iş sektoru daxildir.*

**5.2.** Şöbəyə Agentliyin İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şöbə müdiri rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

**5.3.** *Şöbə müdirinin Agentliyin İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır.*

*Şöbə müdiri olmadıqda, ezamiyyədə, məzuniyyətdə olduqda və ya xəstəlik, yaxud yaxın qohumunun vəfatı ilə əlaqədar bir iş günündən artıq iş yerində olmadıqda onun səlahiyyətlərini müvəqqəti olaraq şöbə müdirinin müavini həyata keçirir. Eyni səbəblər üzündən şöbə müdirinin müavini işdə olmadıqda şöbə müdirinin vəzifələrinin icrası Mərkəzin direktorunun təqdimatı əsasında Agentliyin İdarə Heyətinin sədrinin əmri ilə sektor müdirlıərindəni birinə həvalə olunur.*

**5.4.** Şöbənin digər əməkdaşları Mərkəzin direktorunun təqdimatı əsasında Agentliyin İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

**5.5.** Şöbə müdiri:

**5.5.1.** şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir.

**5.5.2.** Mərkəzin direktoru ilə razılaşdırmaqla şöbə müdirinin müavininin vəzifə bölgüsünü müəyyən edir, sektorlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, şöbədə çalışan işçilərin əmək və icra intizamına riayət etmələrinə nəzarəti həyata keçirir;

**5.5.3.** şöbənin iş planını hazırlayır; iş planında nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətlə icrasına nəzarət edir;

**5.5.4.** şöbənin fəaliyyət istiqamətləri üzrə Mərkəzin direktorunun yanında müzakirə edilməsi üçün məsələləri müəyyənləşdirir və bu barədə təkliflərini Mərkəzin rəhbərliyinə təqdim edir;

**5.5.5.** şöbənin əməkdaşları haqqında həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi barədə Agentliyin İdarə Heyətinin sədrinə təqdimatların verilməsi üçün Mərkəzin direktoruna yazılı müraciət edir;

**5.5.7.** Mərkəzin digər struktur bölmələrindən və Mərkəzin direktoru ilə razılaşdırmaqla Agentliyin struktur bölmələrindən şöbənin fəaliyyət istiqamətlərinə uyğun olaraq məlumatlar alır;

**5.5.8.** şöbəyə daxil olan müraciətlərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir, Mərkəzin direktoru ilə razılaşdırmaqla səlahiyyətləri daxilində müraciətlərə cavab məktublarını imzalayır;

**5.5.9.** şöbədə kargüzarlıq işlərinin aparılmasını və *qanunvericiliklə müəyyən edilən* məxfilik rejimini təmin edir;

**5.5.10.** şöbənin əməkdaşlarının peşə biliklərinin artırılması və əmək şəraitinin yaxşılaşdırılması üçün təkliflər verir;

**5.5.11.** şöbəni təmsil edir.

**5.5.12.** *Şöbə müdirinin müavini sektorlar arasında müəyyən edilmiş iş bölgüsünə uyğun olaraq işlərin icrasına və şöbədə çalışan işçilərin əmək və icra intizamına riayət etmələrinə nəzarət edir.*

***5.6.*** ~~Şöbə müdiri və şöbənin əməkdaşları~~ *Şöbə müdiri, şöbə müdirinin müavini və şöbənin əməkdaşları* bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

**6.1.** Şöbənin bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq **~~Milli əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunəsi sektorunun~~** *Milli əmtəə nişanları və coğrafi göstəricilər sektorunun* **vəzifələri aşağıdakılardır:**

**6.1.1.** ~~milli əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunəsinin~~ *əmtəə nişanları və coğrafi göstəricilərin* qeydiyyatı ilə bağlı Agentliyə təqdim edilmiş iddia sənədlərinin müvafiq normativ hüquqi aktlarda müəyyən edilmiş tələblərə uyğunluğunu yoxlayır, iddia sənədlərinin baxılmaq üçün qəbul edilməsi və ya qəbul edilməsindən imtina barədə qərarlar qəbul edir;

**6.1.2.** iddia sənədlərinin ilkin ekspertizasını və ekspertizasını həyata keçirir;

**6.1.3.** iddia sənədinin ekspertizasının aparılması üçün vacib olan əlavə materialları iddiaçılardan tələb edir;

**6.1.4.** qanunvericiliklə müəyyən edilmiş qaydada iddia sənədinin ilkinliyinin müəyyən edilməsi barədə qərarlar qəbul edir;

**6.1.5.** iddia olunan nişanın (işarənin) qanunvericilikdə müəyyən olunmuş tələblərə uyğunluğunu yoxlayır;

**6.1.6.** iddiaçının təşəbbüsü və ya ekspertizanın sorğusu ilə ekspertizaya təqdim edilən əlavə materialların iddia sənədinin mahiyyətini dəyişdirib-dəyişdirmədiyini araşdırır və nəticəyə uyğun əsaslandırılmış qərar qəbul edir;

**6.1.7.** iddia sənədlərinə dair sorğu, bildiriş və arayışlar verir;

**6.1.8.** ekspertizanın sorğusuna (bildirişinə) cavab verilmədikdə və ya üzrsüz səbəblərdən qanunvericilikdə müəyyən edilmiş müddətdə cavab verilmədikdə iddia sənədinin verilməmiş sayılması barədə iddiaçıya bildiriş göndərir;

**6.1.9.** iddia sənədi üzrə iddiaçılar, onların patent müvəkkili olmayan nümayəndələri və patent müvəkkilləri ilə yazışmalar aparır;

**6.1.10.** ~~iddiaçının vəsatəti əsasında sənaye nümunəsinə dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 dekabr tarixli 478 nömrəli Qərarı ilə təsdiq edilmiş "İddia sənədi üzrə məlumat axtarışının və mahiyyətcə ekspertizanın aparılması Qaydası"na uyğun olaraq məlumat bazalarında müvafiq axtarış aparır və axtarışın nəticəsi barədə hesabat (arayış) hazırlayır;~~

**6.1.11.** ~~milli əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunəsinin~~ *əmtəə nişanları və coğrafi göstəricilərin* qeydiyyatı sahəsində iddiaçılara (onların patent müvəkkili olmayan nümayəndələrinə və patent müvəkkillərinə) məsləhətlər verir;

**6.1.12.** iddia sənədinin ekspertizasının təkmilləşdirilməsinə dair təkliflərin hazırlanmasında və ekspertizanın aparılmasında ortaya çıxan yeni məsələlərin həlli istiqamətində tədbirlərin həyata keçirilməsində iştirak edir;

**6.1.13.** iddia sənədlərinin ekspertizası zamanı məxfiliyi təmin edir;

**6.1.14.** qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir.

**6.2** Şöbənin bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, **Beynəlxalq əmtəə nişanı sektorunun vəzifələri aşağıdakılardır:**

**6.2.1.** Nişanların beynəlxalq qeydiyyatı üzrə Madrid sistemi vasitəsilə əmtəə nişanlarına hüquqların qorunmasına təminat yaradılması məqsədilə Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərindən daxil olan iddia sənədlərinin ilkin ekspertizasını keçirir, nəticə müsbət olduqda iddia sənədlərini Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Beynəlxalq Bürosuna (bundan sonra - **Beynəlxalq Büro**) göndərir;

**6.2.2.** Azərbaycan Respublikasının ərazisində qeydiyyatının qüvvədə olmasını təmin etmək məqsədilə Beynəlxalq Büro tərəfindən Agentliyə göndərilən əmtəə nişanlarına dair iddia sənədlərinin Qanunda və müvafiq normativ-hüquqi aktlarda müəyyən edilən qaydada ekspertizasını aparır və nəticəyə uyğun qərarlar qəbul edir;

**6.2.3.** iddia sənədlərinin ekspertizasının təkmilləşdirilməsi ilə bağlı beynəlxalq təcrübəni öyrənir və tətbiqi barədə təkliflər verir;

**6.2.4.** milli əmtəə nişanlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı müvafiq beynəlxalq müqavilələr çərçivəsində mühafizəsinin təmin edilməsi üçün qanunvericilikdə

müəyyən edilmiş prosedurların həyata keçirilməsini təmin edir;

**6.2.5.** beynəlxalq əmtəə nişanlarının Konvensiya və ya sərgi ilkinliyinin müəyyən edilməsi ilə bağlı tədbirlər görür;

**6.2.6.** milli əmtəə nişanlarını xarici dövlətlərdə qeydiyyata aldırmaq və ya onun beynəlxalq qeydiyyatını həyata keçirmək istəyən iddiaçılara məsləhətlər verir;

**6.2.7.** Agentlikdən Mərkəzə daxil olmuş və ya Mərkəzin struktur bölmələri tərəfindən hazırlanmış normativ hüquqi aktların layihələrinə dair rəylər hazırlayır (hazırlanmasında iştirak edir);

**6.2.8.** Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun olaraq sənəd layihələrinin hazırlanmasında iştirak edir;

**6.2.9.** sektorun fəaliyyəti barədə dövrlər üzrə hesabatlar, arayışlar hazırlayır və təhlillər aparır;

**6.2.10.** Qanunun tələblərinə əməl olunması istiqamətində tədbirlərin hazırlanmasında və həyata keçirilməsində iştirak edir**;**

**6.2.11.** Mərkəzin fəaliyyətini tənzimləyən daxili qaydaların, təlimatların və digər normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərin hazırlanmasında iştirak edir;

**6.2.12.** qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir.

~~***6.3.*** *Şöbənin bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq,* ***İddiaçıların müraciətləri üzrə iş sektorunun vəzifələri aşağıdakılardır:***~~

~~***6.3.1.*** *sənaye mülkiyyəti obyektlərinin (əmtəə nişanları, coğrafi göstəricilər, ixtira, faydalı model və sənaye nümunələri) qeydiyyatı ilə bağlı Agentliyə elektron və ya ümumi poçt vasitəsi ilə daxil olan, habelə birbaşa təqdim edilən iddia sənədləri Əqli Mülkiyyət Hüquqlarının Avtomatik İdarəolunması Sisteminə (IPOA) daxil edilməmişdən əvvəl onların müvafiq normativ hüquqi aktlarda müəyyən edilmiş tələblərə uyğunluğunun yoxlanılmasında Agentliyin Ümumi şöbəsinin Sənədlərin icrasına nəzarət sektorunun əməkdaşlarına köməklik göstərir;*~~

~~***6.3.2.*** *iddia sənədinin tərtib edilməsi, ilkin ekspertizanın və ekspertizanın aparılması üçün tələb olunan əlavə materiallar (sənədlər) barədə iddiaçılardan, digər hüquqi və fiziki şəxslərdən daxil olan telefon zənglərini, iddia sənədinə və onun statusuna dair Agentliyin "Çağrı Mərkəzi"nə ünvanlanan müraciətləri araşdırır və bu Əsasnamə ilə müəyyən edilmiş səlahiyyətləri daxilində cavablandırır;*~~

~~***6.3.3.*** *zərurət yarandıqda iddiaçıların (onların nümayəndələrinin), patent müvəkkillərinin və sənaye mülkiyyəti ilə maraqlanan digər şəxslərin "Vətəndaşların Qəbulu otağı"nda Mərkəzin rəhbərliyi və aidiyyəti struktur bölmələrin rəhbərləri tərəfindən qəbul edilməsi ilə bağlı tədbirlər görür;*~~

~~***6.3.4.*** *sənaye mülkiyyəti məsələləri ilə bağlı "Çağrı Mərkəzi"nə daxil olan müraciətləri (sorğuları) ümumiləşdirir və həmin məlumatların bir nüsxəsini Agentliyin rəhbərliyinə və bir nüsxəsini Mərkəzin rəhbərliyinə təqdim edir;*~~

~~***6.3.5.*** *zəruri hallarda iddiaçı (onun səlahiyyətli nümayəndəsi) ilə əlaqə saxlayır, iddia sənədi üzrə lazım olan məlumatları alır, tələb olunan əlavə materialların (sənədlərin), ekspertizanın sorğu və bildirişlərinə dair cavabların vaxtında göndərilməsini tövsiyə edir, habelə etirazının olub-olmadığını öyrənir;*~~

~~***6.3.6.*** *iddia sənədi üzrə iddiaçı (onun səlahiyyətli nümayəndəsi) və patent müvəkkilləri ilə elektron poçt vasitəsilə yazışmalar aparır;*~~

~~***6.3.7.*** *zərurət yarandıqda iddiaçının təşəbbüsü və ya ekspertizanın sorğusu ilə ekspertizaya təqdim edilən əlavə materialların (sənədlərin) iddia sənədinin mahiyyətini dəyişdirib-dəyişdirmədiyinin yoxlanılmasında ekspertlərlə birlikdə iştirak edir və nəticə barədə müraciət müəlliflərini məlumatlandırır;*~~

~~***6.3.8.*** *iddia sənədinin ekspertizası prosedurunun təkmilləşdirilməsinə dair təkliflərin hazırlanmasında iştirak edir;*~~

~~***6.3.9.*** *iddia sənədlərinin ekspertizası ilə bağlı məlumatların məxfiliyini təmin edir;*~~

~~***6.3.10.*** *qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir.*~~

~~**6.4.** *Sektor öz işini Agentliyin və Mərkəzin digər struktur bölmələri ilə əlaqəli şəkildə qurur.*~~

## ƏSASNAMƏYƏ EDİLMİŞ DƏYİŞİKLİKLƏRİN SİYAHISI

Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin direktorunun 2021-ci il 18 may tarixli P-013 nömrəli əmri ilə aşağıdakı dəyişikliklər edilmişdir:

**1.** adında və 1.1-ci bənddə "**Əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunəsinin"** sözləri *"Əmtəə nişanları və coğrafi göstəricilərin"* sözləri ilə əvəz edilmişdir.

**2.** 2.1.1, 2.1.3, 2.1.4, 6.1.1 və 6.1.11-ci yarımbəndlərdə ismin müvafiq hallarında **"milli əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunəsi**" sözləri ismin müvafiq hallarında "*əmtəə nişanları və coğrafi göstəricilər"* sözləri ilə əvəz edilmişdir.

**3.** 2.1.6-cı yarımbənddə **"milli əmtəə nişanlarının, coğrafi göstəricilərin və sənaye nümunələrinin"** sözləri, 3.1.1-ci yarımbənddə **"əmtəə nişanlarının, coğrafi göstəricilərin və sənaye nümunələrinin"** sözləri, 3.1.10 və 3.1.12-ci yarımbəndlərdə **"əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunəsinin"** sözləri və 3.1.15-ci yarımbənddə **"əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunələrinin"** sözləri müvafiq olaraq *"əmtəə nişanları və coğrafi göstəricilərin"* sözləri ilə əvəz edilmişdir.

**4.** 3.1.1-ci yarımbənddə **"və Patent haqqında" Azərbaycan Respublikasının qanunlarına"** sözləri *"Azərbaycan Respublikasının Qanununa" (bundan sonra - **Qanun**)* sözləri ilə əvəz edilmişdir.

**5.** 3.1.2-ci yarımbəndində **"rəylərdə (qərarlarda)"** sözləri *"rəydə (qərarda)"* sözləri ilə əvəz edilmişdir.

**6.** 3.1.5-ci yarımbənddə "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda (bundan sonra - **Qanun**) sözləri "*Qanunda"* sözü ilə əvəz edilmişdir.

**7.** 3.1.21-ci yarımbənddə **", sənaye nümunələrinin qeydiyyatı sahəsində isə "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 noyabr tarixli 437 nömrəli qərarı ilə təsdiq edilmiş "Patentin alınması barədə iddia sənədinə aid Tələblər"də"** sözləri çıxarılmışdır.

**6.** 5.1-ci bəndin ikinci abzası aşağıdakı redaksiyada verilmişdir.

*"Şöbənin strukturuna Milli əmtəə nişanları və coğrafi göstəricilər sektoru, Beynəlxalq əmtəə nişanları sektoru və İddiaçıların müraciətləri üzrə iş sektoru daxildir.";*

Əvvəlki redaksiya: ~~**"Şöbənin strukturuna Milli əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunəsi sektoru və Beynəlxalq əmtəə nişanı sektoru daxildir".**~~

**7.** 6.1-ci bənddə **"Milli əmtəə nişanı, coğrafi göstərici və sənaye nümunəsi sektorunun"** sözləri *"Milli əmtəə nişanları və coğrafi göstəricilər sektorunun"* sözləri ilə əvəz edilmişdir.

**8.** 6.1.10-cu yarımbənd ləğv edilmişdir.

**9.** 6.3 və 6.4-cü bəndlər əlavə edilmişdir:

Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin direktorunun 2022-ci il 5 may tarixli P-11 nömrəli əmri ilə aşağıdakı dəyişikliklər edilmişdir:

**10.** 5.1-ci bənddə **"və iddiaçıların müraciətləri üzrə iş sektoru"** sözləri çıxarılmışdır**.**

**11.** 5.3-cü bənd aşağıdakı redaksiyada verilmişdir:

*"5.3. Şöbə müdirinin Agentliyin İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır.*

*Şöbə müdiri olmadıqda, ezamiyyədə, məzuniyyətdə olduqda və ya xəstəlik, yaxud yaxın qohumunun vəfatı ilə əlaqədar bir iş günündən artıq iş yerində olmadıqda onun səlahiyyətlərini Agentliyin İdarə Heyətinin sədrinin razılığı ilə müvəqqəti olaraq şöbə müdirinin müavini həyata keçirir. Eyni səbəblər üzündən şöbə müdirinin müavini işdə olmadıqda şöbə müdirinin vəzifələrinin icrası Mərkəzin direktorunun təqdimatı əsasında Agentliyin İdarə Heyətinin sədrinin*

*əmri ilə sektor müdirlıərindəni birinə həvalə olunur”.*

Əvvəlki redaksiya: “~~**5.3. Şöbə müdiri olmadıqda, ezamiyyədə, məzuniyyətdə olduqda və ya xəstəlik, yaxud yaxın qohumunun vəfatı ilə əlaqədar bir iş günündən artıq iş yerində olmadıqda onun səlahiyyətlərini müvəqqəti olaraq Mərkəzin direktorunun təqdimatı əsasında Agentliyin İdarə Heyətinin sədri tərəfindən müəyyən edilən sektor müdiri həyata keçirir.**~~

**12.** 5.5.9-cu yarımbənddə **“və”** sözündən sonra *“qanunvericiliklə müəyyən edilən”* sözləri əlavə edilmişdir.

**13.** Aşağıdakı məzmunda 5.5.12-ci yarımbənd əlavə edilmişdir:

*“5.5.12. Şöbə müdirinin müavini sektorlar arasında aparılmış iş bölgüsü üzrə işlərin icrasına və şöbədə çalışan işçilərin əmək və icra intizamına riayət etmələrinə nəzarət edir.”*

**14.** 5.6-cı bənddə **“Şöbə müdiri və şöbənin əməkdaşları”** sözləri “*Şöbə müdiri, şöbə müdirinin müavini və şöbənin əməkdaşları”* sözləri ilə əvəz edilmişdir.

**15.** 6.3-cü bənd ləğv edilmişdir.

---